# ADNSU tədqiqat və kompüter elmləri sahəsində Azərbaycanda bir nömrədir - SCImago Institutions Rankings



**İspaniyanın nüfuzlu SCImago Institutions Rankings - Qlobal reytinq təşkilatının 2021-ci il üçün keçirdiyi rəy sorğusuna əsasən, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti (ADNSU) Şərqi Avropa ölkələri üzrə tədqiqat istiqamətində 459-cu sırada olmaqla Azərbaycan universitetləri arasında birinci yerdə qərarlaşıb. Tərtib edilmiş siyahıda həm dünya, həm Şərqi Avropa ölkələrindən müxtəlif universitetlər, həm də ölkə daxilində Azərbaycandan üç universitetin - Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti və Azərbaycan Tibb Universitetinin adı yer alıb.**

Regional və qlobal elmi bazaların indeksləşdirmə sistemlərində yer alan bir universitetin ölkə, regional və dünya səviyyəsində sıralanması zamanı öncə həmin ali təhsil müəssisəsinin alimlərinin elmi məqalələrinin, jurnallarının, patent və digər nəşrlərinin "Scopus", "Web of Science" kimi elmi bazalara daxil olaraq indeksləşməsi əsas götürülür. Bundan əlavə, universitetlərin reytinqləri tədqiqat işləri, yetişdirdiyi kadr potensialı, əcnəbi və yerli tələbə sayı, elmi ədəbiyyatı, kitabxana bazası və digər vacib nüanslar nəzərə alınmaqla müəyyən olunur.

SCImago Institutions Rankings - Qlobal reytinq təşkilatı da bu və ya digər parametrləri nəzərə alaraq universitetlərin reytinqlər siyahısını və universitetlərdən "Scopus" beynəlxalq elmi bazasında məqalələrin dərci və istinadlara əsasən 2021-ci il üçün yeni siyahını tərtib edib. ADNSU ümumi istiqamətlər üzrə dünya universitetləri arasında 855-ci sırada yer almaqla Azərbaycandan ikinci sırada qərarlaşıb:

*https://www.scimagoir.com/rankings.php?sector=Higher+educ.&country=AZE*

Qeyd edək ki, birinci yerdə Bakı Dövlət Universiteti və üçüncü yerdə Azərbaycan Tibb Universiteti yer alıb. Onu da xatırladaq ki, ADNSU tərtib olunmuş siyahıda ikinci yerdə göstərilsə də, professor-müəllim heyətinin sayı və "Scopus" beynəlxalq elmi bazasında məqalələrin dərci nisbətinə görə birinci sırada adını qeyd etdiyimiz ali təhsil müəssisəsindən heç də geridə qalmır. Yəni universitet göstərilmiş istiqamətlər üzrə məqalələrinin hər adambaşına düşən sayına görə yox, ümumi sayına görə ikinci sıradadır.

Təşkilatın Şərqi Avropa ölkələri üzrə apardığı araşdırmalara görə elmi sahələr üzrə ADNSU 855-ci sırada olmaqla ikinci yerdə olsa da, tədqiqat sahəsi üzrə birinci yerdə - (459) - qərarlaşıb:

*https://www.scimagoir.com/rankings.php?sector=Higher+educ.&country=AZE&ranking=Research*

Bundan əlavə, tərtib olunmuş siyahıda ADNSU 686-cı sırada yer almaqla Kompüter elmləri üzrə də birinci yerdədir:

*https://www.scimagoir.com/rankings.php?sector=Higher+educ.&country=Eastern+Europe&ranking=Innovation&area=1700*

SCImago Institutions Rankings təşkilatı universitet və elm mərkəzlərini onların elmi-tədqiqat fəaliyyətinin nəticələri, innovasiyalara verdiyi töhfə və İnternet şəbəkəsindəki reprezentativlik səviyyəsinə görə ranqlaşdırır. Reytinqdə yer almaq üçün əsas şərtlərdən biri son bir il ərzində "Scopus" bazasına daxil olan elmi jurnallarda ən azı 100 elmi məqalənin dərc olunmasıdır.